ANA KÜR

İyul-avqust 2022-ci il, N 3-4 (163-164)
Qəzet 21 fevral 2009-cu il tarixdən çıxır

İctimai, ekoloji maarifləndirici qəzet

Bərpaolunan enerji növləri ilə bağlı çox böyük potensialımız var

Xəbər verildiyi kimi, iyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilmişdir. Dövlətimizin başçısı müşavirədə giriş və yekun məzmunlu nitqlər söyləmişdir. Ölkəmizin həyatının son altı ayı ilə əlaqədar bütün istiqamətlərə dair geniş təhlili əks etdirən məruzələrdə ekoloji məsələlər də öz əksini tapmışdır. Prezident İlham Əliyev azad edilmiş ərazilərdə su və bərpaolunan enerji barədə danışmış, görüləcək işlərin istiqamətini göstərmişdir.

Burada mən suvarma ilə bağlı layihələri xüsusilə qeyd etmək istəyirəm. Azad edilmiş ərazilərdə həm böyük su anbarları və su kanallarının tikintisi, həm içməli su təchizatı nəzərdə tutulur - biz Şərqi Zəngəzuru azad etməklə böyük su mənbələrinə yenə də qayıtmışıq, onlar da işğal altında idi. Eyni zamanda, suvarma məsələləri böyük dərəcədə Kəlbəcər və Laçın su mənbələri hesabına təmin ediləcək. Bu yaxınlarda Kəlbəcər, Laçın rayonlarında olarkən mənə layihə təqdim edildi. Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyəti tərəfindən içməli suyun Azərbaycanın Aran bölgəsinə qədər gətirib çatdırması layihəsi də var. Yəni, bu, içməli su ilə bağlı olan problemləri böyük dərəcədə həll edəcək. Ona görə bu layihələrə xüsusilə baxmaq lazımdır.

İçməli suya və suvarmaya gəldikdə, biz, eyni zamanda, xarici investisiyalardan da istifadə etməliyik. Mənə bu yaxınlarda məruzə edildi ki, bəzi şirkətlər Ələt Azad İqtisadi Zonasında fəaliyyət göstərmək üçün, o cümlədən Xəzər suyunun duzsuzlaşdırılması layihəsi ilə bağlı müraciət etmişlər. Bunun da çox böyük əhəmiyyəti var. Bu, dünyanın bir çox ölkələrində artıq sınaqdan çıxmış layihələrdir və burada dövlət-özəl sektor tərəfdaşlığı da mümkündür. Əlbəttə, eyni zamanda, dövlət xətti ilə, özəl investisiya xətti ilə ayrı-ayrılıqda layihələrin icrası nəzərdə tutulmalıdır.

Bərpaolunan enerji növləri ilə bağlı mən giriş sözümdə qeyd etdim ki, bizim doğrudan da çox böyük potensialımız var. Artıq kontraktlar imzalandı, icra edilir və yeni kontraktların imzalanması gözlənilir, memorandumlar imzalanıb. Bizim Xəzər dənizi kimi çox nəhəng bir enerji mənbəyimiz var. Bunu artıq beynəlxalq mütəxəssislər də qeyd edirlər. Xəzər dənizinin küləyi bəzi hallarda bizim üçün bəlkə də problem yaradır. Amma, əksinə, bu, Bakının havasını təmizləyir. Xəzri əsəndə biz hamımız sevinməliyik ki, şəhərə təmiz hava gəlir. Amma bu küləyin də çox böyük faydası ola bilər. Bir neçə böyük şirkətdən Xəzər dənizində külək elektrik stansiyalarının tikintisi ilə bağlı ilkin təkliflər gəlib. Onlar indi həm Energetika Nazirliyi, həm İqtisadiyyat Nazirliyi tərəfindən öyrənilir, təhlil aparılır. Əlbəttə, biz bilirik potensial nədir, biz bilirik ki, bu, xarici investorlar üçün cəlbedicidir. Onu da deməliyəm ki, artıq bu sahədə böyük şirkətlər arasında rəqabət var və çox ciddi rəqabət var. Mən indi o şirkətlərin adlarını çəkmək istəmirəm. Amma bu sahəyə investisiya qoymaq istəyənlərin sayı kifayət qədər çoxdur. Ona görə biz düzgün seçim edəcəyik. Yəni, demək istəyirəm ki, mən burada investisiyalarla bağlı qıtlıq görmürəm.

Prezident növbəti dəfə diqqəti ictimai nəzarətə çəkdi

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilib.

Prezident İlham Əliyev çıxışında növbəti dəfə diqqəti ictimai nəzarətə çəkib.

"Kölgə iqtisadiyyatı ilə mübarizədə yaxşı nəticələr əldə olunsa da, yenə kölgə iqtisadiyyatı və narahat edən məsələlər var. Əfsuslar olsun ki, etimad göstərdiyim bəzi kadrlar bu etimadı doğrultmayıblar. Kölgə iqtisadiyyatı, əlbəttə, hər ölkədə var, əsas məsələ onun həcmidir, dövlətin, hökumətin buna münasibətidir. Dövlətin və hökumətin buna münasibəti belədir ki, bu, Azərbaycanda olmamalıdır və bizim əlimizdədir ki, bu, olmasın. Çünki texnologiyalar inkişaf edir, yeni nəzarət imkanları yaranır. Burada kölgə iqtisadiyyatı adlı mənfi faktor olmamalıdır, yaxud da minimuma endirilməlidir. Ona görə ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir - uçot, nəzarət və əlbəttə, kadrların yerləşdirilməsi.

Əgər qurumun başında dayanan kadr öz cibinə işləyirsə, istəyirsən hansı elektron nəzarət vasitəsi olursa-olsun, onsuz da onun heç bir əhəmiyyəti olmayacaq.

Ona görə burada bu amillərin vəhdəti olmalıdır. İnstitusional tədbirlər, əlbəttə ki, dövlət nəzarəti, ictimai nəzarət və kadrların düzgün seçilməsi. Ona görə hesab edirəm, baxmayaraq ki, büdcəmiz artıb, o cümlədən şəffaflıq nəticəsində böyük dərəcədə artıb, buna görə yenə də rezervlər var.

Kölgə iqtisadiyyatı bu rezervləri faktiki olaraq dövlətdən götürüb kiminsə cibinə istiqamətləndirir. Buna son qoyulmalıdır və biz bütün imkanlardan istifadə etməliyik."

QHT fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı ictimai müzakirə keçirilib

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində QHT fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı ictimai müzakirə keçirilib.

Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ictimai müzakirədə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Milli Məclisin Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnsan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqov, Agentliyin Müşahidə Şurasının üzvləri və qeyri-hökumət təşkilatları iştirak ediblər.

Müzakirəyə açılış nitqi ilə başlayan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva mövzunun vacibliyini vurğulayaraq bildirib ki, QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik sənədlərinin zamanın tələbinə uyğun təkmilləşdirilməsi olduqca vacib məsələdir. Əminik ki, bu gün Agentliyin təşkilatçılığı ilə keçirilən ictimai müzakirə QHT fəaliyyətini tənzimləyən normativ hüquqi aktların daha da təkmilləşdirilməsində faydalı olacaq.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev bildirib ki, ölkədə hüquqi dövlət quruculuğu sahəsində atılan addımlar, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yaranması qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericiliyin təkminləşdirilməsini zəruri etmişdir. V.Quliyev ictimai müzakirənin əhəmiyyətini qeyd edərək, iştirakçılar tərəfindən səsləndirilən bütün təkliflərin təhlil ediləcəyini bildirib.

Çıxış edən Milli Məclisin Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnsan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqov bildirib ki, Azərbaycanda son illər müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlər modelinin müasirləşdirilməsini, demokratiyanın dərinləşdirilməsini, milli maraqların qorunması sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviqini zəruri edir.

Sonda Agentliyin Müşahidə Şurasının üzvləri - İsrayıl İsgəndərov, Zaur İbrahimov, Günel Səfərova, Nurəddin Mehdiyev, QHT rəhbərləri - "Ekoleks" Ekoloji Hüquq Mərkəzi ictimai birliyinin sədri Samir İsayev, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Vətəndaşların əmək hüquqlarının müdafiə liqasının sədri Sahib Məmmədov, Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar ictimai birliyin sədri İlqar Hüseynli, "Demokratiyanı Öyrənmə" ictimai birliyinin sədri Mirali Hüseynov, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" ictimai birliyinin sədri Əhməd Abbasbəyli, "İctimai İştirakçılığın Dəstəklənməsi" ictimai birliyin sədri Şaban Nəsirov, "İnformasiya Təşəbbüslərinə Dəstək" ictimai birliyin sədri Cəsarət Hüseynzadə, "MG Consulting Azerbaijan" ictimai birliyin sədri Məhəmməd Quluzadə, "İnsan Haqları Klubu" ictimai birliyin sədri Rəsul Cəfərov, "Hüquqi Təşəbbüslər Mərkəzi" ictimai birliyin sədri Ziya Quliyev, "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" ictimai birliyin sədri Səadət Bənənyarlı tədbirdə çıxış edərək bildiriblər ki, qanunvericilikdə edilən yeniliklər vətəndaş cəmiyyətinin güclənməsinə öz töhfəsini verəcək.

Vüsal Quliyev: "Regionlarda QHT-lərin fəaliyyəti gücləndirilməlidir"

"Bu gün ağsaqqallara, veteranlara dövlət tərəfindən çox böyük diqqət və qayğı göstərilir".

Bunu Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev Ağsaqqalların və veteranların təmsil olunduğu qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumunda çıxış edərkən deyib.

O, regionlarda qeyri-hökumət təşkilatlarının fəaliyyətinin gücləndirilməsinin zəruri olduğunu bildirib: "Bu gün cəmiyyətimizi narahat edən bəzi problemlər var. Qızların təhsili, narkomaniya ilə bağlı problemlər bizi narahat edir. Bu məsələlərlə bağlı da bu təşkilatların üzərinə müəyyən vəzifələr düşür".

V.Quliyev vurğulayıb ki, rayonlarda yalnız rəhbər şəxslərdən ibarət təşkilatlar var: "Bunun səbəbinin nə ilə bağlı olduğunu bilmirəm. Biz istəyirik ki, bu təşkilatlar ofissiz, fəaliyyətsiz qalmasın. Regionlarda ictimai şuraların da fəaliyyəti bizi qane etmir. Bu məsələlərlə bağlı ciddi səylər göstərilir. İstəyirik ki, yerlərdə ictimai şuralar, veteran təşkilatları, ağsaqqallar ictimai nəzarətin həyata keçirilməsində fəallıq nümayiş etdirsin".

Qarabağın meşələri bərpa olunur

İşğaldan azad edilən torpaqlarımızda indiyədək 40 mindən çox ağac tingi əkilib

Otuz il ərzində Qarabağdakı nəinki tarixi, mədəni-dini abidələrimiz, infrastrukturumuz, hətta bu yerlərin hər daşı da, torpağı da erməni terroruna məruz qalıb. Bu illər ərzində Qarabağın təbiəti ekoloji terror nəticəsində tamamilə məhv edilib.

İşğal dövründə Azərbaycanın 261 min hektar meşə fondu sahəsi ermənilərin vandalizm cinayətlərinə məruz qalıb. Hələ 1988-ci ildən dağıdılmağa başlanılan Topxana meşəsində bu illər ərzində minlərlə ağac kəsilib. Yaşıllığı, səfalı yerləri, gözəl təbiəti ilə seçilən Qarabağı yerləyeksan edən erməni barbarları 30 il ərzində orada heç bir dənə də olsun ağac əkməyiblər. İllərlə bu faktları gizlətsələr də, Vətən müharibəsindəki şanlı zəfərdən sonra dünya bir daha erməni barbarlığına şahidlik etdi.

Bu gün isə qalib Azərbaycan dövləti işğaldan azad edilmiş torpaqlarımızda tikinti-quruculuq işləri ilə yanaşı, yaşıllıqları da bərpa etməyə başlayb.

Zəfər gününün şərəfinə əkilən 44 min ağac

Müharibədən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Böyük qələbədən ötən bir ildə - Zəfər günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Bununla da Topxana meşəsinin bərpasına başlanıldı.

Bundan sonra Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası keçirildi.

2020-ci il dekabrın 3-də Zəngilanın Ağalı kəndində IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyasında ərazinin torpaq-iqlim şəraitinə uyğun 500 ədəd müxtəlif cinsli ağac əkilib, palıd, Şərq çinarı və tut ağaclarının toxumları əraziyə səpilib. Bununla Zəngilanda ekoloji dayanıqlığın bərpasının başlanğıcı qoyulub.

Ötən ilin dekabrında Qarabağ Dirçəliş Fondu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Zəngilanda ekoloji müxtəlifliyin qorunması məqsədilə daha 1000 ədəd ağac əkilib. Layihə çərçivəsində Zəngilan şəhərinin girişində 30 hektar ərazidə 30 min ağacın - əsasən yerli iqlim şəraitinə uyğun eldar şamı, həmişəyaşıl sərv, göyrüş, şeytan ağaclarının və Şərq çinarının əkilməsi nəzərdə tutulur. Bu layihənin 2022-ci ilin payızında yekunlaşdırılması planlaşdırılır.

"Şuşa ili" çərçivəsində şəhərdə yaşıllaşdırma tədbirləri davam edəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ətraf mühitin və təbii sərvətlərin tənzimlənməsi şöbəsinin müdir müavini Raqub Mirzəyev qəzetimizə bildirib ki, indiyə kimi Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli, Laçın, Kəlbəcər, Ağdam rayonları və Şuşada ümumilikdə 40 mindən çox ağac tingləri əkilib. Burada eldar şamı, göyrüş, qarağac, dağdağan və digər müxtəlif cinsli ağaclar əkilib, 2 tondan çox palıd toxumu səpilib. Şuşada Topxana meşəsində və şəhərin bəzi yerlərində 1000 ağac - dağdağan, göyrüş, qarağac və saqqız ağacı, 200 kiloqram palıd toxumu əkilib. Bu il "Şuşa ili" çərçivəsində Şuşa şəhərinin ətrafında yaşıllaşdırma tədbirləri davam ediləcək.

Ardı 4-cü səhifədə

Rahim Hüseynov–75

Salyanın fəxri

Azərbaycan tarixi boyu milli mənəvi dəyərləri özündə yaşadan şəxsiyyətləri ilə qurur duymuşdur. Bu insanların müstəsna xarakterləri ziyalılıqları ilə təcəssüm edəndə təmsil etdikləri elin, obanın, yurdun insanlarının qəlbində yaşamaq və xalqa xidmət etmək amalı daha da möhkəmlənir, yoluna əlavə nur saçılır. Belə şəxsiyyətlərdən biri, şərəfli həyat yolu ilə, əsl ziyalılığı ilə bir nümunə kimi özünü təsdiqləmiş, öz kök-soyunun layiqli davamçısı kimi, xalq arasında dərin hörmət və nüfuz qazanmış həmyerlimiz Rahim Məmmədhüseyn oğlu Hüseynovdur. Onun Əmək və ictimai fəaliyyətini sadalamaq zaman aparsa da bildirmək yerinə düşər ki, Rahim müəllim Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru, tibb elmləri doktoru, professor, çoxlu sayda dövlət və beynəlxalq mükafatların müəllifi olmaqla bərabər gözəl insan, torpağını, yurdunu sevən təəssübkeş ziyalıdır.

Salyan Rayon Ziyalılar İctimai Birliyinin sədri, Əməkdar müəllim Allahverdi Piriyev redaksiyamıza Rahim müəllimin 75 illik yubileyi haqqında göndərdiyi yazıda bildirir ki, onun haqqında çox sayda insanlar danışa və yaza bilər. İnanıram ki, uzun illər Rahim müəllimin diqqət və qayğısını hiss edən müstəqil "Ana Kür" qəzeti bu missiyanı boynuna götürməli və yubilyarın 75 illik geniş və mənalı həyatına aid silsilə materiallar hazırlayaraq çap etməlidir. Bu təşəbbüsü Ziyalılar Birliyi etməklə yurdsevər ziyalımıza ictimai dəstəyi davam etdirir, yetişən yeni nəsil insanların öz tarixi keçmişlərinə və bu tarixi yaşadanlara sevgi və qayğı ruhunda tərbiyə edilməsi işinə xidmət edir.

Sevindik Hətəmov,
Salyan Rayon İcra Hakimiyyətinin başçısı

Salyan respublikamızın ən qədim yaşayış məskənlərindən biridir. Buranın sakinləri isə tarixən cəsur, yurdunu sevən, qonaqpərvər, səxavətli, eyni zamanda təəssübkeş olmuşlar. Bu gün Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin və digər sahələrinin ən yüksək pilləsində olan insanların sırasına baxsaq, Salyanı təmsil edən şəxsiyyətlər bütün istiqamətlərdə öndədir. Onlar dövlətə, dövlətçiliyə sadiq insanlardır. Bu, dünən də belə olub, bu gün də belədir.Tam əminliklə demək olar ki, sabah da belə olacaqdır. Çünki bu yurdda tarixi varisliyin davam etməsi üçün yaxşı nümunələr vardır.

Bəli, Hüseynov Rahim Məmmədhüseyn oğlu da onlardan biridir. O, elə bir şəxsiyyətdir ki, bütün salyanlılar onunla fəxr edir və adı çəkiləndə gördüyü xeyirxah işlər, el üçün, vətən üçün xidmətləri göz önünə gəlir. Biz onu təkcə alim kimi, yüksək ixtisaslı, təşkilatçı həkim kimi deyil, əsil vətənpərvər kimi tanıyırıq. O, həmişə tutduğu vəzifəyə hörmət gətirmiş, insanların yanında olmuş, xeyirxah əməlləri ilə fərqlənmişdir.

Tarixə birinci Qarabağ müharibəsi kimi daxil olan ötən əsrin 90-cı illərində Rahim Hüseynovun təşkilatçılıq bacarığı, qorxmazlığı, mərdliyi, vətənpərvərliyi özünü tam mənada göstərdi. O illər Rahim müəllimin adını bütün qarabağlılar ehtiramla çəkirdilər. Rahim Hüseynovun təşəbbüsü və rəhbərliyi ilə 1989-1990-cı illərdə Dağlıq Qarabağın Azərbaycanlılar yaşayan ərazilərində həkim ambulatoriyaları, feldşer-mama məntəqələri, Xocalı rayon mərkəzində 150 çarpayılıq xəstəxana kompleksi tikilib istifadəyə verilmiş və zəruri avadanlıqlarla təchiz edilmişdi.

Rahim Hüseynov Səhiyyə naziri olarkən ölkə səhiyyəsinin bir nömrəli vəzifəsi torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün canından və qanından keçən hərbçilərimizin və xalqımızın hər bir nümayəndəsinin tibbi ehtiyaclarının qarşılanması olmuşdur. Onun təşəbbüsü və rəhbərliyi ilə yaradılan Hərbi Tibbi Əlaqələndirmə Şurası qısa müddətdə döyüş bölgələrində peşəkar tibbi xidmətin təşkilinə nail olmuş və insanları ən çətin məqamlarda vaxtsız ölümün pəncəsindən ala bilmişdir.

Rahim Hüseynov tibb sahəsində qazandığı böyük elmi təcrübəni zaman-zaman pedaqoji fəaliyyətlə əlaqələndirmiş, müstəqilliyini yeni əldə etmiş pespublikada ixtisaslı kadrların yetişməsinə töhfələr vermişdir. Onun yaxından köməyi və dəstəyi ilə Salyanın və bölgənin yüzlərlə gənci ixtisas, vəzifə qazanmış, elinə, ailəsinə ruzi bərəkət gətirmişdir. Rahim müəllim həmişə ehtiyacı olanların yanında olmuşdur. Salyanın dini-mənəvi abidələrinin qorunmasına, eyni zamanda bu yurdun tarixi şəxsiyyətlərinin, darülmöminlərin irsinin toplanması və nəşri işlərinin də əsas ideya müəllifi və dəstəkçisi olmuşdur.

Rahim müəllimin Salyana hər gəlişi, həmyerlilələri ilə görüşü yadda qalan olur. Xüsusən, əlamətdar tarixi günlərdə o həmişə bizimlədir. Əli bəy Hüseynzadə irsinin təbliği sahəsində isə xidmətləri təqdirəlayiqdir

Xatırlayıram ki, Salyanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransda iştirak edən respublikanın hörmətli qonaqları sırasında Rahim müəllim də var idi. Tədbirdə Əli bəy Hüseynzadənin müəllifi olduğu qiymətli rəsm əsəri Salyan Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edildi.

Rahim müəllim haqqında çox danışmaq olar. Mən bilirəm ki, rayon ictimaiyyətimiz ona, onun şəxsiyyətinə nə qədər rəğbət bəsləyir. Bunu isə o, özü qazanıb. Ona görə də anadan olmasının 75 illik yubileyinin qeyd edilməsi ictimaiyyətimiz üçün yadda qalan hadisə olacaqdır.

Salyan rayonun ən qiymətli ziyalılarından olan Rahim Hüseynova möhkəm cansağlığı və uzun ömür arzu edirik.

Əliağa HÜSEYNOV,
Rayon ağsaqqalı, Azərbaycan Respublikası Milli Məclisinin 4-cü və 5-ci çağırış deputatı, sabiq icra başçısı, general - leytenant.

Rahim Hüseynov haqqında danışmaq, xüsusən onun 75 illik yubileyi münasibəti ilə fikir söyləmək mənim üçün çox qürurvericidir. Məni Rahim Məmmədhüseyn oğlu ilə üzün illərin dostluğu və qardaşlığı birləşdirir. Bu, hər kəsə nəsib olmayan bir qismətdir. Münasibətlərimizin əsasını isə doğma Salyanımıza, onun tarixinə, müasir inkişafına olan birgə baxışlarımız, başqa sözlə, təəssübkeşliyimiz olmuşdur. Bu işdə Rahim qardaşım təşəbbüskar kimi həmişə öndə olub.

Gənclik illərimiz, təhsil dövründə yaranan münasibətlərimiz zaman keçdikcə, daha da inkişaf edərək möhkəmlənmişdir. Birinci Qarabağ müharibəsi, 20 Yanvar və Xocalı faciələri, digər hadisələr xalqımızın azadlıq, istiqlaliyyət uğrunda mübarizə əzmini qırmadı, əksinə daha da möhkəmləndirdi. Həmin dövrdə Azərbaycan Respublikasının Səhiyyə nazirinin müavini, sonra nazir vəzifələrini şərəflə icra edən Rahim Hüseynov olmuşdur. Həmin dövrdə mən də hərbi işdə, Bakı şəhərinin Yasamal rayonunun hərbi komissarı vəzifəsində xidmətdə idim. İşlə bağlı əlaqələrimiz çox sıx idi. Mən müşahidə edirdim ki, o, səhiyyə nazirinin müavini və nazir kimi mülki şəxs olsa da xidməti vaxtının çoxunu Qarabağda, döyüş bölgələrində keçirirdi. Vəzifəsi ilə əlaqədar icra etdiyi işlərlə yanaşı, sərəncamında olan sanitar aviasiyanın köməyi ilə dəfələrlə yaralıların, qadın və uşaqların həyatını təhlükənin pəncəsindən xilas etmiş, onların ordumuzun nəzarət etdiyi məntəqələrə çıxarılmasını təşkil etmişdir.

Müharibə gedə-gedə səhiyyənin hərbi relslər üzərində təşkili, yeni qurum olan səhra hospitallarının yaradılması onun müstəsna təşkilatçılıq qabiliyyətinin və Vətənə təmənnasız xidmətinin nümunəsi idi. Xatırlayıram ki, Rahim Hüseynov səhiyyə naziri təyin edildikdən sonra onun təklifi ilə Respublika Səhiyyə Nazirliyini, Müdafiə, Daxili İşlər, Daxili Qoşunlar, Milli Təhlükəsizlik Nazirliklərinin tibbi idarələrini və Dəmir Yolu İdarəsinin tibbi şöbələrini birləşdirən qurum-Hərbi Tibbi Əlaqələndirmə Şurası yaradıldı. Şuranın sədri Rahim Hüseynov, üzvləri isə adı çəkilən idarələrin rəisləri təyin edildi. Beləliklə, respublikada hərbi-tibbi xidmətin strukturu yaradıldı və hərbiçilərə döyüş meydanından tutmuş mərkəzi hərbi qospitallara qədər ixtisaslaşmış tibbi yardım göstərilməsinə nail olundu.

Rahim müəllim bir dost kimi də həmişə mənim fəaliyyətimi izləmiş, fərəhli günlərimdə olduğu kimi, çətin məqamlarımda da yanımda olmuş, məsləhətlərini əsirgəməmişdir. Xatırlayıram ki, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə doğma Salyan rayonuna icra başçısı təyin olunmuşdum. 2010-cu ildə isə Kür çayında suyun səviyyəsinin artması nəticəsində daşqınlar oldu. Salyanı Allahın hökmü, hörmətli Prezidentimiz İlham Əliyevin iradəsi, dövlətin və xalqın birliyi, insanların gecə və gündüz bəndvurma işlərində şücaətləri xilas etdi. Həmin ağır günlərdə Rahim müəllim Salyanın ağsaqqal ziyalısı kimi Bakıdan doğma Salyana gəldi və insanlara dəstək oldu.

Yadıma salıram ki, mənim Milli Məclisə deputatlığım qeydə alınandan sonra təbliğat marafonlarının əsas məqamlarında Rahim müəllim bir qardaş kimi yanımda oldu. Öz inandırıcı və hərarətli çıxışı ilə secicilərin mənə səs vermələrini xahiş etdi.

Mənim üçün çox xoşdur ki, deyəm, vaxtı ilə onun Kür çayı üzərində yeni körpünün çəkilməsi barədə qaldırdığı təşəbbüsün və başladığı işin həyata keçirilməsi mənə qismət oldu. Təkliflər ümumiləşdirilərək cənab Prezidentə məruzə olundu. Salyanı Babazanlı ilə birləşdirən, uzunluğu 200 metr olan müasir körpünün xidmətindən bu gün minlərlə adam minnətdarlıq hissi ilə istifadə edir. Bu, bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionlara, xüsusən Salyana və salyanlılara diqqət və qayğısının, körpünün qısa müddətdə inşası isə ölkəmizin iqtisadi qüdrətinin nəticəsi idi.

Hazırda Rahim Hüseynov ömrünün ən mənalı dövrünü yaşamaqdadır. Biz bilirik ki, onun arxada qalan illəri xalqa və Vətənə qüsursuz xidmətdə keçmişdir. Ona görə də onun həmişə başı uca gəzməyə mənəvi haqqı vardır. Çünki, o fəaliyyətinin bütün illərində doğma Salyan üçün, müstəqil Azərbaycan üçün, dövlətimiz və dövlətçiliyimiz üçün nə mümkündürsə, hamısını etmişdir. Salyanlılar Rahim müəllimin hansı soydan, hansı kökdən olduğunu yaxşı bilirlər. Məmmədhüseyn dayı və Nənəqız müəllimə el-obaya həmişə nümunə olmuşlar.

Yaşımızın bu çağında bəzi xatirələr unudulmur. Təhsil illərinin tətil günlərindən birində Ukraynaya birgə səfər etməyimizi, burada Mülki Aviasiya Akademiyasında təhsil alan dostlarımız Sabir və Səlahəddinə baş çəkməyimizi bu gün, 50 ildən sonra da yadda qalan günlər kimi xatırlayıram.

Daha sonra mən özümə məxsus bir qürur hissi də yaşayıram ki, Müdafiə Nazirinin əmri ilə Rahim müəllimə təqdim edilən tibbi xidmət polkovniki rütbəsini əks etdirən hərbi bileti Yasamal rayonunun hərbi komissarı kimi mən imzalamış və qardaşıma özüm təqdim etmişəm.

Biz bu gün də çox mehriban və sədaqətli dostlarıq. Rahim müəllim sadiq dost kimi həmişə əlaqə saxlayır, görüşürük. Ötən günləri xatırlayırıq.

Mən yaşımın bu çağında dostum və qardaşım Rahim Hüseynova cansağlığı, gümrahlıq, bir də müdriklik ömrü arzu edirəm.

Rahim Hüseynovun 75 illik yubileyi ilə əlaqədar materialların davamı növbəti sayımızda da çap ediləcəkdir

Azərbaycanın qədim tarixi vardır. Xalqımız keçmişi ilə həqiqi olaraq fəxr edir. Fəxarət hissini qürurla yaşayan belə bölgələrdən biri də Salyandır. Min illərdir ki, Kür çayının bu sahilləri qədim türk xalqlarının tayfalarına məskən olmuş, onların iqtisadi, sosial-mədəni həyatlarının qurulmasında və inkişafında həyatı əhəmiyyət kəsb etmişdir. Bu torpaq özünün yeraltı sərvətləri ilə də məşhurdur. Lakin Salyanı, bütövlükdə bölgəni şöhrətləndirən digər və əsas amillər vardır. Bunların sırasında bu torpağın yetirdiyi müqtədir insanlardır.

Tarixən darülmöminlər diyarı kimi tanınan Salyanımız həm də Azərbaycanın elm, sənət aləminə, ictimai- siyasi həyatına alimlər, filosoflar, şairlər, nəğməkar insanlar bəxş etmişdir. Bu, Allahın Salyana və salyanlılara verdiyi böyük nemətdir və bu mövzuda saatlarla danışmaq olar. Bu gün haqqında söz açmaq istədiyimiz Salyan torpağının çağdaş dövrümüzdə yetirdiyi ən böyük simalardan biri Rahim Məmmədhüseyn oğlu Hüseynovdur. Yazıda məqsədimiz Rahim müəllimin geniş və məzmunlu həyatını tam olduğu kimi əhatə edə bilmək imkansızlığımızı etiraf etməklə 75 yaşının sevincini, qayğılarını və ağırlığını yaşayan həmyerlimizi təbrik etmək, bir ziyalı kimi müşahidə və mütaliəmiz nəticəsində qənaətlərimizi oxucularımızla bölüşməkdir.

O, bir şəxsiyyətdir. Bu sözə heç nə əlavə etməyə ehtiyac yoxdur. Əlavə və əlavələr odur ki, hər hansı bir sahədə dünyanın ən dahi şəxsiyyəti, maddi imkanlısı də olmaq olar. Əgər o şəxsdə mənlik, xalqına mənsub milli daşıyıcılıq keyfiyyətləri, təəssübkeşliyi yoxdursa, demək tam deyil. Sadalanan keyfiyyətlərə hər kəs yenilərin də əlavə edə bilər. Mən inanıram və inandırmaq bacarığım vardır ki, onların hamısı bu yazının qəhrəmanına xasdır. Biz qurur duyuruq ki, müasir Salyanın və salyanlıların Rahim müəllim kimi təəssübkeş ziyalısı vardır. 75 illik ömrün uşaqlıq, təhsil illərini nəzərə almasaq, tam 50 ildən artıq bir müddət Azərbaycan xalqına xidmətdə, özü də şərəflə, ləyaqətlə xidmətdə keçib. Bu illərin hər bir günü aylara, illərə bərabər olmuşdur. Bu məqamda böyük ömrün qısa tərcümeyi-halını təqdim etmək istəyirəm.

Həmyerlimiz Rahim Hüseynov şərəfli bir həyat yolu keçmişdir. O, 1947-ci il iyun ayının 3-də Salyan şəhərində ziyalı ailəsində dünyaya gəlmişdir. 1964-cü ildə orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1970-ci ildə həmin institutu bitirmişdir. 1970-1972-ci illərdə İvanovo vilayətində hərbi hissənin həkimi işləmiş, hərbi xidmətdən tərxis edildikdən sonra Salyan rayon mərkəzi xəstəxanasına həkim-cərrah göndərilmişdir.

İşgüzarlığı nəzərə alınaraq o, 1975-ci ildə, 28 yaşında Azərbaycan SSRİ Səhiyyə Nazirliyi aparatında məsul vəzifəyə irəli çəkilmişdir. 1977-ci ildə isə o, nazirlikdə yeni yaradılmış məktublar, ərizə və şikayətlər şöbəsinin müdiri təyin edilmişdir. Kollektiv arasında qazandığı hörmət, qısa müddətdə topladığı təcrübə, ən nahayət, zamanın çağırışlarını vaxtında duyması və idarəetmə sahəsində irəli sürdüyü təkliflər rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir. Artıq 1979-cu ilin oktyabrında R.Hüseynov nazirliyin kadrlar, elm və təhsil müəssisələri idarəsinin rəisi vəzifəsinə təyin edilmiş, 1980-ci ilin dekabrında isə R.Hüseynov daha məsul vacib bir sahəyə - Müalicə-Profilaktika Baş İdarəsinə rəis vəzifəsinə irəli çəkilmişdir.

1986-cı ilin may ayında, R.Hüseynov respublika səhiyyə nazirinin müavini vəzifəsinə təyin edilir. Bu vəzifədə onun fəaliyyət dairəsi daha da genişlənmiş və eyni zamanda, həll olunmalı problemlərin ağırlığı bir o qədər də artmışdır. Lakin 39 yaşlı Rahim müəllimin qısa müddətdə qazandığı təcrübə və işgüzarlığı, onun üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə imkan vermişdir.

R.Hüseynovun səyi və rəhbərliyi sayəsində az müddətdə respublikanın kənd rayonlarında ixtisaslaşdırılmış tibbi xidmət sahəsində xeyli işlər görülmüşdür. Belə ki, MRX-nin bazasında 100-ə yaxın ixtisaslaşdırılmış travmatologiya, pulmonologiya, urologiya, qastroenterologiya, endokrinologiya, proktologiya, allerqologiya və reanimasiya şöbələri yaradılmışdır ki, indi onlar müasir səhiyyəmizin əsas bazası rolunu oynayırlar.

Təkcə Salyan rayonu timsalında götürsək, R.Hüseynovun təşəbbüsü ilə mərkəzi xəstəxanada ixtisaslaşdırılmış travmatologiya, pulmonologiya, allerqologiya, reanimasiya şöbələri yaradılmış, bu şöbələr uzun illər Salyan rayonunun əhalisi ilə yanaşı, ətraf rayonlardan gələnlərə də yüksək səviyyəli tibbi yardım göstərmişdir. Onun bilavasitə təşəbbüsü ilə rayonumuzda 120 çarpayılıq cərrahiyyə korpusu, 100 çarpayılıq kardioloji dispanser və Babazanan qəsəbəsində həkim ambulatoriyası tikilib əhalinin istifadəsinə verilmişdir

Rahim müəllimin Azərbaycan xalqı qarşısında xidmətlərini onun təkcə bacarıqlı və təşkilatçı səhiyyə rəhbəri olması ilə dəyərləndirmək azdır. O, əsl vətənpərvər olmaqla, var qüvvəsi ilə xalqının azadlığı və müstəqilliyi yolunda çalışmaqla bu vətənə bir şərəfli oğul xidməti göstərənlərdəndir. Tütduğu məsul vəzifələrlə yanaşı, o, çox tezliklə içərisində olduğu, problemlərini əyani gördüyü, daha azad və firavan yaşamaq haqqı olduğu xalqının ədalət, haqq səsinə çevrilir.

Bu xüsusiyyətlərinə görə, həmyerlilələri Rahim Hüseynova layiq olduğu etimadı göstərərək, onu 1990-cı ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçmişlər. Həmin dövrdə isə ölkənin, müstəqilliyimizin taleyi Qarabağda həll olunurdu. Qarabağ mövzusu Rahim müəllimin həyat və fəaliyyətindən qırmızı xətlə keçir. Onun vaxtında etdiklərini o torpağın övladları, bütövlükdə tarix unutmayıb, unutmayacaq da..

Rahim həkimin təşəbbüsü və rəhbərliyi ilə 1989-1993-cü illərdə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrində 28 həkim ambulatoriyası, 17 feldşer-mama məntəqəsi, Xocalı rayon mərkəzində isə 150 çarpayılıq ən müasir avadanlıqlarla təchiz edilmiş xəstəxana kompleksi tikilib istifadəyə verilmişdi.

Rahim Hüseynov I Qarabağ müharibəsi dövründə döyüş bölgələrində ən çox olan və fəaliyyət göstərən şəxslərdən - Azərbaycanda hərbi-tibbi xidmətin yaradıcılarından biridir. Onun bilavasitə səyi və rəhbərliyi nəticəsində döyüş bölgələrində bir-birinin ardınca səhra hospitalları yaradılmış, tibbi ləvazimat, avtomaşın və kadrlarla operativ surətdə təmin olunmuşdu. Bəli, bütün bunlar yalnız R.Hüseynovun vətəninə olan məhəbbətinin təzahürü kimi qiymətləndirilə bilər. O vaxtlar Müdafiə Nazirliyinin heç bir hərbi-tibbi strukturu yox idi. Ona görə də bütün məsələlərə Səhiyyə Nazirliyi rəhbərlik edirdi. R.Hüseynov Səhiyyə naziri vəzifəsinə təyin edildikdən sonra bu məsələlərə münasibət xeyli gücləndirildi.

1992-ci ildə R.Hüseynov müstəqil Azərbaycan Respublikasının ilk səhiyyə naziri təyin edildi. Onun təklifi ilə respublikada Səhiyyə Nazirliyini, Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik Nazirliklərinin tibbi idarələrini və Dəmir Yolu İdarəsinin tibbi şöbəsini birləşdirən qurum-Hərbi Tibbi Əlaqələndirmə Şurası yaradıldı. Şuranın sədri R.Hüseynov, üzvləri isə göstərilən idarələrin rəisləri təyin edildi. Şura tərəfindən tezliklə respublikada hərbi-tibbi xidmətin strukturunu yaradıldı və hərbçilərə döyüş meydanından tutmuş mərkəzi hərbi hospitallara qədər müasir səviyyədə ixtisaslaşmış tibbi yardım göstərilməsinə nail olundu. Beləliklə, vaxtında və düzgün aparılmış tibbi yardım nəticəsində 50 minə yaxın yaralının həyatı ölümün pəncəsindən qurtuldu və onlardan əksəriyyəti tezliklə müalicə olunub döyüş meydanına göndərildi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Şuranın xətti ilə Qarabağa vertolyot vasitəsilə 700 ton dərman və sarğı materialları, 5 min ton qan göndərilmişdi.

R.Hüseynov Hərbi-Tbbi Şuranın sədri kimi respublikada hərbi-tibbi xidmətin yaradılmasında əməyinə görə, 1992-ci ildə növbədənkənar tibb xidməti polkovniki hərbi rütbəsinə layiq görülmüşdür.

R.Hüseynov həm nazir müavini, həm də nazir kimi münaqişənin ən ağır nöqtələrində, səngərlərdə olub. Güllə və mərminin dəhşəti onu sarsıtmayıb, əksinə o, ezamiyyət müddətini uzadaraq, demək olar ki, münaqişə zonasından çıxmırdı. Əgər sanitar-aviasiya xətti ilə uçuşları izləsək görərik ki, 1988-1993-cü illərdə cəbhə xəttinə R.Hüseynovdan çox hava səfəri edən həkim olmayıb. Bu müddət ərzində o, münaqişə zonasında 487 gün ezamiyyətdə olub. Bu rəqəm çox şeyi ifadə edir.

"Hər şey Qarabağ üçün, hər şey cəbhə üçün!" devizi ilə yaşayan ölkədə R.Hüseynov mülki səhiyyəmizin inkişafı naminə də əlindən gələni əsirgəmirdi. Onun səyi nəticəsində Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına öncüllər sırasında üzv oldu. Respublikamızın tarixində ilk olaraq xarici dövlətlərlə əməkdaşlıq barədə beynəlxalq müqavilələr imzalandı (Türkiyə, İran və s.). Bu müqavilələr əsasında respublikamızda qeyd olunan dövlətlərdən əvəzsiz olaraq, dəyəri milyonlarla qiymətləndirilən dava-dərman, avadanlıq və ambulanslar göndərilirdi. Respublikamızın tarixində ilk dəfə olaraq ən zəruri sahələr üzrə 35 nəfər həkim ixtisasını artırmaq üçün xaricə təcrübə qazanmaq üçün uzunmüddətli ezam olundu. R.Hüseynov 1995-ci ildən pedaqoji fəaliyyətlə məşğul olmağa başlamış və Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetində vitse-prezident, I prorektor kimi çalışmışdır. 2016-cı ildə universitetin rektoru təyin olunmuş və hal-hazırda bu vəzifədədir.

Rahim Hüseynov 1980-ci ildən elmi fəaliyyətlə də məşğul olmağa başlamış, 100-ə yaxın elmi məqalənin və 2 elmi əsərin müəllifi, tibb elmləri doktoru, Milli və Beynəlxalq İnformatizasiya Akademiyalarının həqiqi üzvü, professordur. R.Hüseynov tibbi demoqrafiya və ekologiya sahəsində beynəlxalq miqyaslı tədqiqatlarına görə, "Dünya İnformatizasioloqları elitası" ünvanlı beynəlxalq müsabiqələr, akademik Yusif Məmmədəliyev və akademik S.Vavilov adına Beynəlxalq mükafatların laureatıdır. R.Hüseynov əməyinə görə, dövlət tərəfindən medal, nişan, fəxri fərman və digər mükafatlarla təltif edilmişdir.

Rahim müəllim Qarabağ müharibəsi veteranıdır. Ali dərəcəli cərrah, ehtiyatda olan tibb xidməti polkovnikidir.

Bəli, istər elmi, istər pedaqoji, istərsə də ictimai fəaliyyəti ilə salyanlıların fəxrinə çevrilən Rahim müəllimimizin artıq 75 yaşı tamamdır. Düşünürük ki, yalnız xalqına, Vətəninə, doğma yurduna sonsuz sədaqəti olan, elinin, obasının təəssübünü çəkən insanlar Rahim müəllim kimi şərəfli ömür yaşaya bilərlər. İsti nazir kabinetini soyuq səngərlə dəyişməyi bacaran, qanlı 20 Yanvar günlərində sıravi həkim kimi yaralıların başı üzərində dayanan və nəhayət, 44 günlük Vətən müharibəsində bilik və təcrübəsini bölüşməkdən çəkinməyən, tarixi qələbəmizlə qürur duyan Rahim müəllim hələ uzun illər ağsaqqallıq, ziyalılıq missiyasını davam etdirəcəkdir. Fikrimizcə, biz də dövrümüzün ən böyük salyanlısı olan Rahim Məmmədhüseyn oğlu ilə fəxr edəcəyik.

...Bəlkə burada yazımıza nöqtə qoya bilərdim. Sandım ki, fikrimi hələ tamamlaya bilməmişəm. Bu boyük insanın şəxsi keyfiyyətlərinin haradan bəhrələndiyini düşünərkən gəldiyim qənaət ondan ibarətdir ki, onun əsl salyanlılığının, yurdsevərliyinin formalaşmasında Salyanın mənəvi iftixar qaynaqları olan darülmöminlərimizin dini-əxlaqi görüşlərinin, Əlibəy Hüseynzadə məfkurəsinin, daha sonra Xəlil Rza cəsarətinin, Ələvsət Quliyev həqiqətinin, Arif Məlikov, Əliağa Kürçaylı, Aşıq Pənah və digər söz, sənət abidələrimizin humanist, bəşəri baxışları, bir də nəsil, nəcabət, genetik daşıyıcılıq missiyası...

R.S.Professor Rahim Hüseynovun 75 illik yübileyi ilə bağlı geniş material Salyan ziyalılarının müraciəti ilə "Ana Kür" qəzetinin xüsusi sayında çap ediləcəkdir.

Rüstəm Məlikov,
Ali Media mükafatı laureatı,
Azərbaycan Jurnalistlər Birliyi və
Azərbaycan Yazıçılar Birliyinin üzvü.

"Qələbə" qəzeti, 17 iyun 2022-ci il.

Avqustun 23-də Əliövsət Quliyevin 100 yaşı tamam olur

Görkəmli alim və ictimai xadim

1922-ci ilin 23 avqustunda Salyan rayonunun Qızılağac kəndində anadan olan Əliövsət Nəcəfqulu oğlu Quliyev Ulu Tanrının ona bəxş etdiyi 47 illik ömrü çox şərəfli bir missiyaya - Azərbaycanda tarix elminin fundamental əsaslarının yaradılmasına, milli tarixşünaslıq məktəbinin formalaşmasına sərf etmişdir. Azəpbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Əliövsət Quliyevin ən böyük xidmətlərindən biri onun rəhbərliyi və bilavasitə iştirakı ilə ilk dəfə olaraq monumental üçcildlik "Azərbaycan tarixi" kitabının yaradılmasıdır. Bundan başqa, Əliövsət Quliyev Azərbaycanın yeni tarixinə dair toplular, monoqrafiyalar, dərsliklər çap etdirmişdir.

Hələ kiçik yaşlarından Əliövsət dərin ağılı və fərasəti ilə orta məktəb illərində özünü göstərə bilmişdi. Onun eşitdiklərini dərhal qavramaq qabiliyyəti və qeyri-adi yaddaşı hər kəsi heyran edirdi. 1935-ci ildə Ə.Quliyev orta məktəbi vaxtından əvvəl bitirərək Salyan Pedaqoji Məktəbinin tarix fakültəsinə daxil oldu. 1939-cu ildə pedaqoji məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olundu. Əliövsət Quliyevin fenomenal biliyi və parlaq istedadı diqqəti cəlb etməyə bilməzdi. O, 1942-ci ildə IV kurs tələbəsi olarkən universitetin filologiya fakültəsində tarix müəllimi kimi fəaliyyət göstərməyə başladı. Həmin il fakültənin, daha sonra isə universitetin həmkarlar ittifaqı komitəsinin sədri seçildi. 1944-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirən Əliövsət Quliyev Azərbaycan tarixi kafedrasında müəllim kimi saxlanıldı. Eyni zamanda, bu ixtisas üzrə aspiranturaya daxil oldu. 1948-ci ildə 26 yaşında namizədlik dissertasiyasını uğurla müdafiə edən Əliövsət Quliyev universitetin tarix fakültəsinin dekanı seçildi. 1948-ci ildən 1963-cü ilə qədər, yəni ömrünün 15 ilini Əliövsət Quliyev baş əsərini- "Azərbaycan tarixi" üçcildliyini yaratmağa sərf etdi.

1961-ci ildə Əliövsət Quliyev Moskvada doktorluq dissertasiyasını böyük uğurla müdafiə etdi. Elə həmin il professor adına layiq görüldü. 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilərkən Əliövsət müəllim artıq təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından uzaqlarda tanınan məşhur bir alim idi. 80-ə qədər elmi əsərin müəllifi olan görkəmli tədqiqatçı Azərbaycan tarixinin problematik məsələləri barədə elmi sözünü demişdir. Onun elmi redaktorluğu ilə onlarca kitab nəşr edilmişdir.

Əliövsət Quliyev 1952-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun direktoru, 1967-1969-cu illərdə isə Elmlər Akademiyası Tarix İnstitutunun direktoru vəzifələrində çalışmışdır. O, Azərbaycan Ali Soveti Rəyasət Heyəti yanında toponimika komissiyasının ilk sədri olmuş, bu vəzifəni yerinə yetirərkən böyük təşkilati iş aparmışdır.

Zəngin elmi potensiala malik olan Əliövsət Quliyev gənc kadrların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. Onun rəhbərliyi ilə təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə onlarla alim namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, Azərbaycan ziyalılığının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirən, təvazökar, prinsipial, elm sahəsində həm özünə, həm də tələbələrinə çox tələbkar şəxsiyyət

olmuşdur.

Əliövsət Quliyev elm mücahidi idi. O, elə insanlardan idi ki, onların həyat və əməlləri ölkənin salnaməsinə daxil olmuşdur. Əliövsət Quliyev Azərbaycanın tarixinə düzgün baxışı müəyyənləşdirən, ifadə edən və yad təsirlərdən qoruyan ilk alim olmuşdur. Ona görə də Ə.Quliyevin ölkəmizdə tarix elmini yüksək səviyyəyə qaldırmaq istiqamətində yaratdığı ənənələr bu gün də yaşayır və tarixçi-alimlərin yeni nəsillərinin yetişməsinə xidmət edir.

Qədirbilən Azərbaycan xalqı onun tarixini öyrənməyi öz qısa ömrünün mənasına və məqsədinə çevirmiş Əliövsət Quliyevi heç vaxt unutmur. Böyük alim və ictimai xadimin xatirəsinə hörmət əlaməti olaraq Bakıda bir küçəyə onun adı verilmiş, yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Doğulub boya-başa çatdığı Salyanın küçələrindən biri onun adını daşıyır.

1969-cu ilin 6 noyabrında Haqq dünyasına qovuşan Əliövsət Quliyev bu gün yenə də öz elmi ideyaları ilə gənc tarixçilərin yoluna işıq saçır.

Postmüharibə dövründə sosial dəstək paketi: 100 min şəxsə 191 min xidmət göstərilib

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbə qazandığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələrinə və müharibə iştirakçılarına genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilməkdədir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, ötən dövrdə Vətən müharibəsi şəhidlərinin 8 minədək ailə üzvünə 16 minədək sosial ödəniş (Prezident təqaüdü, müavinət və ya pensiya) təyin olunub, 3 151 müharibə iştirakçısına əlillik və bununla bağlı sosial ödəniş təyin olunub. Cari ildə "Müharibə veteranı" adı verilmiş 81 856 şəxsə də Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yekunlaşdırılıb. Ümumilikdə 93 min nəfərə 104 min sosial ödəniş təyin olunub.

Sosial ödənişlər vətəndaşların müraciəti olmadan, elektron sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği 2021-2022-ci illərdə orta hesabla 60 faiz artırılıb. 1 yanvar 2021-ci ildən Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin təqaüdü, 1 yanvar 2022-ci ildən isə Vətən müharibəsinin veteranlarına Prezidentin təqaüdü təsis olunub.

Mühüm sosial dəstək tədbirlərindən biri də şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatıdır. Bu proqram 2021-ci ildə 5 dəfə genişlənib. Ötən il şəhid ailələri və müharibə əlillərinə 3 min, 2022-ci ilin əvvəlindən daha 587 mənzil, postmüharibə dövründə isə 3587 mənzil verilib. Ümumən ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

Dəstək tədbirləri çərçivəsində müharibə əlillərinin avtomobillə təminatı işləri də davam etdirilib. Postmüharibə dövründə 264 müharibə əlilinə avtomobil verilib. Bu günədək bu kateqoriyadan olan 7450 şəxs avtomobillə təmin olunub.

Postmüharibə dövründə şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər də daxil olmaqla, 13 mindən çox şəxsin aktiv məşğulluq proqramlarına, o cümlədən 7,8 min şəxsin özünüməşğulluq proqramına cəlb olunması təmin edilib. Bu ilin 1 iyul tarixinə "Məşğulluq marafonu"na qoşulan 649 işəgötürənin təqdim etdiyi vakansiyalar üzrə 2423 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

Həmçinin 9 mindən artıq şəxsə 28,5 minədək sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, 1456 müharibə əlilinə 20 766 reabilitasiya vasitəsi verilib. Dövlət başçısının göstərişi ilə 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı protezlə təminatına başlanıb ki, bu proqram çərçivəsində Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunub.

Şəhid ailələrinə, müharibədə yaralanmış hərbi qulluqçulara mərkəzi və rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən 26 istiqamətdə xidmətlərin "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edildiyi vahid əlaqələndirmə mərkəzlərində 41 min şəxsə xidmətlər göstərilib. Sosial dəstək çərçivəsində birdəfəlik maddi yardımla, ərzaq dəstəyi ilə təminat işləri də aparılıb.

Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri 1 iyul 2022-ci il tarixə şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənlərdən ibarət 100 minədək şəxsi əhatə edib, onlara 191 min xidmət göstərilib.

Otuz illik həsrətin sonu: Ağalı kənd sakinləri doğma yurdlarına qayıtmağın sevincini yaşayırlar

İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa - Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanıldı.

41 ailənin dörd mərhələdə köçürülməsi planlaşdırılıb. İlk mərhələdə 10 ailə köçəcək. Ağalı kəndinə Köçürüləcək təxminən 200 nəfər burada hər cür şəraitlə təmin olunacaq.

AZƏRTAC xəbər verir ki, Ağalıda məskunlaşacaq sakinlər yüksək keyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Orada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibb məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək.

"Ağalı kəndinə növbəti aylarda da köçürülmə nəzərdə tutulur. Bu gün isə 58 nəfərin Ağalıya köçürülməsi planlaşdırılır. Ümumilikdə isə 41 ailədən 201 nəfər növbəti 5 gün ərzində Ağalıya köçürüləcək", - deyə Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi bildirib.

Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Kənddə sakinlərin rahat yaşayışını təmin etmək üçün hər cür şərait var. Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti - ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

Amerikada təhsilin bir yolu da Salyanın Noxudlu kəndindən başladı

Salyan rayonunun Noxudlu kəndindən çoxlu sayda elm adamları çıxmışdır. Sadıqovlar soyadı da bu siradadır. Haqqında söhbət açmaq istədiyimiz gənclər də bu nəsli təmsil edirlər.

Ötən yüz illiyin ikinci yarısında rayonun Plastik kütlə emalı zavodunda tokar-frezerçi kimi çalışmış Qaraş kişinin ailəsində 10 uşaq böüyüb tərbiyə almışdır. Onların əksəriyyəti ali və orta ixtisas texniki təhsil ocaqlarını bitirmiş və zamanının gərəkli ixtisaslarına yiyələnmişlər. Bu gün isə bu nəsilin yeni davamçıları yetişməkdədir. Qaraş kişinin oğlu Cəlal Sadıqov rayonun tanınmış maliyyə mütəxəssislərindən biridir. Uzun illər rayon maliyyə şöbəsində və digər qurumlarda qüsürsuz çalışan Cəlal hazırda "Salyan Rayon Mərkəzi Xəstəxanas "Publik Hüquqi Şəxsdə maliyyə şöbəsinin müdiridir. Məqsədimiz Cəlalın işini təbliğ etmək deyil, bu, bəlkə də başqa söhbətin mövzusudur. İstəyimiz onun ailəsində böyüyən iki gəncin yüksək təhsil uğurlarından yazmaq, onları daha geniş auditoriyada təbliğ etməkdir. Salyan rayonunun ictimai-siyasi qəzeti olan "Qələbə" qəzetinin son nömrələrinin birində iki qardaş - Türkel və Elvinin təhsil uğurları barədə yazı diqqətimizi çəkdi. Gənclərin özü ilə, atası Cəlal və əmisi Eldarla görüşdük. Çay süfrəsi arxasında söhbət etdik.Yeni maraqlı məlumatlar öyrəndik.

İlk olaraq böyük qardaş Türkel barədə. Birinci növbədə diqqətimizi yaşına uyğun olmayan təmkinliliyi çəkir. Az danışır. Sanki özünə aid olan məlumatların belə məxfiliyinə riayət etmək istəyir. Əslində, bütün gənclər kimi, içi enerji ilə doludur. Biz bunu aldığı ixtisasla, məşğul olduğu işlə əlaqələndirməyə çalışdıq. Bu barədə bir qədər sonra...

Türkel Cəlal oğlu Qaraşlı 16 oktyabr 1997-ci ildə Salyan rayonunun Noxudlu kəndində dünyaya gəlmişdir. Valideynlərinin təşəbbüsü ilə kənddə deyil, böyük təhsil ənənələri olan Salyan şəhər 2 saylı tam orta məktəbdə təhsilə başlamışdır. İlk illərdən dərslərini mükəmməl mənimsəməsi, güclü yaddaşı və intizamı ilə diqqəti çəkmişdir. Onun ibtidai təhsildə qazandığı nəticələr gələcək uğurlardan xəbər verirdi.

Bunu nəzərə alaraq valideynləri onun təhsilini Şirvan şəhərindəki Türk liseyində davam etdirməsini məsləhət biliblər. Burada da təhsil uğurları davamlı olub. Lisey əlaçısı kimi respublika bilik yarışmalarına qatılıb. Fərqlənib də. "İnformatika layihə olimpiadası"nın respublika üzrə üçüncüsü olub.

2014-cü ildə Türk liseyinin məzunu kimi Azərbaycan Texniki Universitetinin "kompüter mühəndisliyi" fakültəsinə daxil olmuşdur. 2018-ci ildə burada bakalavr təhsilini başa vurduqdan sonra həmin ali məktəbin magistraturasında eyni ixtisas üzrə təhsil almışdır. 2021-ci ildən isə universitetin " İnformasiya təhlükəsizliyi" ixtisası üzrə təhsilin doktorantura pilləsinə daxil olmuşdur.

Türkel Qaraşlı 2020-ci ildən təhsil aldığı universitetdə Kompüter texnologiyaları və kibertəhlükəsizlik kafedrasında ali təhsil sistemi üzrə müəllim işləyir. Bəli, bu, böyük uğurdur. Hələ 25 yaşı tamam olmayan bu gənc ölkəmizin əsas prioritetlərindən biri olan informasiya təhlükəsizliyinin qorunmasında, kiber təhlükəsizliyinin təmin olunmasında xüsusi peşəkarlıq tələb edən və nəticəyə hesablanan əmək sərf edir. Yazının əvvəlində özü haqqında ətraflı danışmağı sevməməyinin sirri də bu, idi...O göründüyündən də çox bilir və bu sirri də qorumağı bacarır. Bu da bir peşədir. İnsanların rahat yaşaması, dövlət maraqlarının mühafizəsi üçün çox gərəkli bir peşə... Belə peşə sahibləri özləri görünməsə də, icra etdikləri işlər göz qabağındadır.

Kiçik qardaş Elvin Qaraşlı ilə daha yaxından tanış olaq. Əslində, bu yazının ictimailəşməsində

onun rolu daha çox oldu. Çünki, öncə sosial şəbəkədə Bakı Neft Məktəbinin səhifəsində tələbə Elvin Qaraşlının ABŞ-da təqaüdlə doktoranturaya qəbul olunması xəbəri paylaşılmışdı. Xəbərdə deyilirdi ki, Bakı Ali Neft Məktəbinin (BANM) Kimya mühəndisliyi ixtisasının V kurs tələbəsi Elvin Qaraşlı ABŞ-da tam təqaüdlü doktoranturaya qəbul olunub. BANM tələbəsi ABŞ-nin Luiziana Universitetində (Lousiana State University) Kimya mühəndisliyi üzrə doktorantura pilləsində təhsil alacaq. Onun bu universitetdən qazandığı təqaüdün məbləği 28 min ABŞ dolları təşkil edir.

Qeyd edək ki, Elvin Qaraşlı 2017-ci ildə Bakı Ali Neft Məktəbinin Kimya mühəndisliyi ixtisasına 675 balla daxil olub. O, seçim etdiyi universitetdən başqa, ABŞ-nin Missuri Elm və Texnologiya Universiteti, Böyük Britaniyanın Mançester Universiteti, Almaniyanın Hamburq Texniki Universiteti və "Erasmus Mundus" proqramı çərçivəsində Fransanın Lill Universiteti, Troyes Universiteti, Polşanın Texnologiya Universiteti, İtaliyanın Bari Aldo Moro Universitetindən də müraciətinə müsbət cavab alıb.



Elvinlə söhbətimiz alınır. Suallarıma maraqla və əhatəli cavablar verir. Öyrənirik ki, 2000-ci ilin 14 yanvar tarixində Noxudlu kəndində dünyaya gəlmişdir. Onun da yolu böyük qardaşı kimi, Salyan şəhər 2 saylı tam orta məktəbdən, sonra isə Şirvan Türk liseyindən keçib. Burada adı həmişə dərs əlacıları sırasında çəkilib. Rüblük qiymətləndirmə imtahanlarına görə, respublika birincisi olub.

Maraqlı faktlardan biri isə odur ki, liseylər arasında keçirilən qiymətləndirmədə birinci yeri tutduğu üçün təhsilini Bakı Özəl Türk Liseyində davam etdirmək şansı qazanıb. Və dəvəti qəbul edərək Bakı şəhərinə gəlib.

Bakıda onun imkanlarının açılması üçün yaxşı şərait yaranıb. O, Respublika fənn olimpiadalarında fizika-kimya fənləri üzrə iştirak etmiş və həmişə adı qaliblər sırasında olmuşdur.

Nəhayət, 2017-ci ildə Ali məktəblərə Tələbə Qəbulu imtahanlarında iştirak edərək 675 bal toplayıb. Tərəddüd etmədən Bakı Ali Neft Məktəbinin "Kimya mühəndisliyi" ixtisasını seçib. Burada təhsil ingilis dilində və Böyük Britaniya universitetlərinin proqramları əsasında aparılır. Bununla belə Elvin bütün proqramları yüksək səviyyədə qavraya bilmiş və təhsili qırmızı diplomla başa vurmuşdur. Təhsil müddətində ABB İBATECH-də data analtika kursunu bitirmişdir.

Yuxarıda qeyd edildiyi kimi bu il Elvin təhsilini ABŞ-da davam etdirəcəkdir. Bu faktın özəlliyi odur ki, E.Qaraşlı təhsilin magistra-

tura keçmədən birbaşa doktoranturaya qəbul olunmuşdur.

22 yaşlı Elvinlə söhbət edirik. Deyir ki, burada bərpa olunan enerji ixtisası üzrə 5 il müddətində təhsil alacaqdır. Vətənə yeni ideyalı və təfəkkürlü mütəxəssis kimi qayıtmaq fikrindədir.

Uğur olsun sizə, qardaşlar! Dünyanın zəka qapısı üzünüzə həmişə açıq olsun.

Əziz valideynlər, belə uşaqlar tərbiyə etdiyinizə görə fəxr edə bilərsiniz.

Azərbaycanın ornitoloji turizm imkanları Böyük Britaniyada təbliğ olunub

Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə Azərbaycan nümayəndə heyəti Böyük Britaniyanın Rutland vilayətində keçirilən Qlobal Quş Müşahidəçiliyi ("Global Bird Fair") turizm sərgisində iştirak edib.

DTA-dan AZƏRTAC-a bildirilib ki, iyulun 15-də işə başlayan sərgidə ölkəmizi Azərbaycan Turizm Bürosu, Azərbaycan Ornitoloji Cəmiyyəti, Naxçıvan Turizm Departamenti, "Camping Azerbaijan" və "Naxchivan Travel" şirkətlərinin nümayəndələri təmsil ediblər.

Sərgidə quş müşahidəçiliyi əraziləri olan Beşbarmaq, Xınalıq və Ləzə kimi dağlıq bölgələrin, Qızılağac, Şirvan və Ağgöl milli parklarının, həmçinin Naxçıvanın bu istiqamətdə olan turizm potensialı təbliğ edilib.

Sərgi çərçivəsində Azərbaycanın ornitoloji turizm imkanlarının təqdimatı məqsədilə təşkil olunan xüsusi seminarda ziyarətçilərə ölkəmizdəki biomüxtəliflik, əsas quş növləri və quş müşahidəsi üçün əlverişli mövsümlər haqqında məlumat verilib.

Sərgidə 60-dan çox ölkə təmsil olunur.

Qeyd edək ki, Azərbaycanın ekoturizmin vacib bir istiqaməti kimi ornitoloji turizm imkanlarının inkişaf etdirilməsi məqsədilə "Beşbarmaq" Dövlət Tarix və Mədəniyyət qoruğu ərazisində infrastrukturun qurulması işlərinin həyata keçirilməsinə başlanılıb.

Xınalıq "Ən yaxşı turistik kənd" adına namizəddir

Ümumdünya Turizm Təşkilatının (United Nations World Tourism Organization - UNWTO) elan etdiyi "Ən yaxşı turistik kənd" müsabiqəsinə Azərbaycandan Xınalıq kəndinin namizədliyi irəli sürülüb.

Əhəmiyyətli abidə kimi dövlət tərəfindən qorunan Xınalıq kəndinin ərazisində 2007-ci ildə "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb.

2020-ci ildə "Xınalıq, orta əsr dağ kəndi" adı ilə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilib. Hazırda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi üçün nominasiya faylının yazılması prosesi davam etdirilir. Dövlət Turizm Agentliyinin mütəxəssislərinin hazırladığı və İlkin Siyahıya daxil edilmiş sənəddə kəndin qədim dili,

köçəri yaşayış tərzi, Qafqaz dağlarındakı qədim memarlıq ənənələri və Xınalıq icmasının təbiətlə harmoniyalı şəkildə yaşayış tərzi onun müstəsna ümumbəşəri dəyərləri kimi qeyd olunur.

Hazırda 3 hektardan çox ərazini əhatə edən "Kima Liqebiriş" adlı qədim qəbiristanlıqda qazıntılar davam edir. Qazıntı zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələri hazırda qoruğun elmi fondunda saxlanılır və onların bir hissəsi Xınalığı ziyarət edən yerli və xarici turistlərə nümayiş etdirilir. Bundan əlavə, kənddə aşkarlanmış qədim epiqrafik abidələr və nadir əlyazmalar öyrənilir. Kənd ərazisində yerləşən dini abidələr - pirlər və ziyarətgahların qeydiyyatı aparılır.

Xınalıq kəndi ərazisində qəza vəziyyətində olan, uçqunlar nəticəsində təhlükəli vəziyyətə düşən evlərin təmir və bərpa prosesi aparılır. Vətəndaşların müraciətlərinə əsasən, hazırda Xınalıq kəndində 16 evin təmir işləri davam etdirilir.

Ərazidə beynəlxalq standartlara uyğun "Xınalıq-Bərpa Təlimat" kitabçası və ərazinin Regenerasiya Planı da hazırlanıb.

Qeyd edək ki, UNWTO-nun keçirdiyi müsabiqənin nəticələri bu ilin sonunadək Mərakeşdə keçiriləcək 24-cü illik sessiyada elan olunacaq. UNWTO-nun "Ən yaxşı turistik kənd" nişanını qazanan kəndlər modernləşmə proqramında daxil ediləcək.

ANA KÜR
İyul - avqust 2022-ci il

SON SƏHİFƏ

Azərbaycanın nümayəndə heyəti Tehranda keçirilən beynəlxalq ekoloji konfransda iştirak edib

İranın paytaxtı Tehranda "Daha yaxşı gələcək üçün ətraf mühit sahəsində əməkdaşlıq" mövzusunda keçirilən regional nazirlər konfransında Azərbaycanı ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Konfransda region ölkələrinin ətraf mühit üzrə müvafiq qurumlarının rəhbərləri, eləcə də BMT-nin bir sıra təşkilatlarının yerli nümayəndəlikləri iştirak edib.

Azərbaycanın nümayəndə heyətinin rəhbəri R.Hacıyev çıxış edərək, ölkəmizdə ətraf mühitin mühafizəsi, iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması sahəsində milli və beynəlxalq səviyyədə aparılan işlər, bu sahədə regional əməkdaşlığın əhəmiyyəti, işğaldan azad edilmiş ərazilərin Ermənistan tərəfindən ekoloji terrora məruz qalması və aparılan bərpa işləri, dağıdılmış şəhər və kəndlərimizin yenidən qurulması, ekoloji sabitliyin yaradılması istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər keçirib.

Plastik qab tullantılarının ətraf mühitə mənfi təsiri azalacaq

Bu mövzuda Salyan Rayon İcra Hakimiyyətinin geniş iclas zalında maarifləndirici təbir keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyətin təmsilçiləri iştirak etmişlər.

Tədbir Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 3 saylı regional Ekologiya və Təbii Sərvətlər İdarəsi və Salyan Rayon İcra Hakimiyyəti başçısı aparatının təşkilatçılığı ilə baş tutmuşdur. Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov iclası açaraq müzakirə olunacaq məsələ barədə məlumat vermişdir.

Sonra 3 saylı Regional İdarənin rəisi Azər Quliyev çıxış edərək bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 Fevral tarixli 935 nömrəli Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın strateji məqsədlərinə uyğun olaraq nəzərdə tutulmuş tədbirlər, habelə beynəlxalq təcrübə və normaları nəzərə almaqla, eyni zamanda "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş son dəyişikliylə əsasən, 15 mikrona qədər olan polietilen məhsulların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması qadağan edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 28 saylı qərarında alqı-satqı prosesində mal və məhsulların daşınması üçün təklif olunan birdəfəlik istifadə üçün nəzərdə tutulmuş, qalınlığı 15-5-mikron olan yüngülçəkili polietilen torbalar istehlakçılara ayrıca məhsul növü kimi təklif edilməsi, bu növ məhsullara ayrıca təqdim edildiyi və satış qiyməti barədə alıcıya əvvəlcədən məlumat verilməsi nəzərdə tutulur.

Salyan rayonunun Qzılağac bələdiyyəsinin sədri Bünyad Yolçuyev, RİH-in Xələc inzibati ərazi dairəsi üzrə nümayəndəsi Səfər Qarayev, "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İçtimai Birliyinin sədri Rüstəm Məlikov, fərdi sahibkar Vaqif Həsənov çıxış edərək müzakirə olunan məsələyə münasibət bildirmişlər.

Qarabağın meşələri bərpa olunur

Əvvəli 1-ci səhifədə

Raqub Mirzəyevin sözlərinə görə, həmin ərazilərdə yerli və iqlim şəraitinə uyğun olaraq ağaclar əkilir. Zəngilan və Ağdamda əkilən yaşıllıq sahələrinin hamısında damcılı suvarma sistemi qurulub. Hazırda ağacəkmə tədbirləri davam etdirilir: "2022-ci il ərzində Zəngilanın giriş hissəsində terras sahələrdə, təxminən 55 hektar ərazidə, eyni zamanda Cəbrayıl-Hadrut avtomobil yolunun sağ tərəfində - 15 hektar sahədə və Füzulidə 200 hektara yaxın ərazidə yeni yaşıllıq sahələrinin salınması nəzərdə tutulub. Həmçinin işğaldan azad edilmiş ərazilərdə magistral avtomobil yollarının kənarında da yeni yaşıllıqlar salınacaq. ETSN və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin birgə layihəsi çərçivəsində yol kənarlarında ağac və kollar əkiləcək".

Bu il Qarabağ və Şərqi Zəngəzurda 455 hektara yaxın ərazidə ağac əkilməsi nəzərdə tutulur

Raqub Mirzəyev qeyd edib ki, nazirlik tərəfindən 2022-2026-cı illəri əhatə edən "Meşə Fondunun Bərpası" Proqramı hazırlanıb. Proqram çərçivəsində ümumilikdə 30 min hektar meşə fondu sahəsinin bərpası üçün meşə bərpa, əkin və təbii bərpa işləri aparılacaq. Ərazilər minalardan təmizləndikcə həmin ərazilərdə yaşıllıqların salınması həyata keçiriləcək.

Yaz aylarında ilk olaraq Zəngilan rayonunun giriş hissəsində -55 hektar sahədə ağacların əkilməsi planlaşdırılıb, əkinə tam hazırlıq gedib. Raqub Mirzəyev vurğulayıb ki, əslində burada ağacəkmə işlərinə artıq başlanılıb, 15 minə yaxın ağac əkilib və bu proses davam etdiriləcək.

R.Mirzəyev ötən il Kəlbəcər və Laçın ərazisində də ağaclar əkildiyini, amma hazırda həmin ərazilərdə mina təhlükəsi olduğundan geniş sahədə ağac əkməyin mümkün olmadığını bildirib. Bu il ərazilər minalardan təmizləndikcə 455 hektarda ağacəkmə tədbirləri nəzərdə tutulub.

IDEA İctimai Birliyindən qəzetimizə bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" adlı layihə çərçivəsində ötən il Qarabağda ağacəkmə aksiyası həyata keçirilib. IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondunun birgə layihəsi çərçivəsində təbiət elmləri sahəsində təhsili olan və bu sahədə fəaliyyət göstərən 60 gənc ekoloqun Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd, Zəngilan, Ağdam və Şuşa daxil olmaqla işğaldan azad edilmiş ərazilərə çoxsaylı səfərləri təşkil edilib. Səfərlər zamanı onlar sözügedən ərazilərdə aparılan ekoloji qiymətləndirmədə, o cümlədən xüsusi cihaz və qurğularla havada olan radiasiya fonu, suyun keyfiyyəti, torpağın analizi və s. proseslərdə iştirak etmiş, işğal nəticəsində törədilmiş ekosidi əyani şəkildə görmüşlər.

IDEA İB-dən bildirilib ki, layihə çərçivəsində Füzulidə 50, Zəngilanda 60, Ağdamda 70 şam ağacı, Qubadlıda və Şuşada isə 50 göyrüş ağacı əkilib. Bundan başqa, Qubadlı və Füzulidə 5 kiloqram palıd toxumu səpilib.

"Zəfərdən dirçəlişə" meşə massivi layihəsi

Qarabağ Dirçəliş Fondunun PR və kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova qəzetimizə bildirib ki, işğaldan azad olunmuş ərazilərdə meşə massivinin salınması, ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxlində, eyni zamanda xaricdə təşviq etmək məqsədilə fondla Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında memorandum imzalanıb.

Zəngilanda həyata keçirilən "Zəfərdən dirçəlişə" meşə massivinin salınması layihəsi bu memorandum çərçivəsində həyata keçirilən ilk layihədir.

"Zəfərdən dirçəlişə" layihəsinə ilk olaraq Zəngilanda başlanılıb və layihənin birinci mərhələsi çərçivəsində 30 hektar ərazidə 30 min ağacın əkilməsi nəzərdə tutulur. Bu mərhələ üçün artıq 30 min ağac əldə olunub və bu ağacların əkilməsi mərhələli şəkildə davam edir. Eyni zamanda "Zəfərdən dirçəlişə - 2" layihəsi də artıq start götürüb. İkinci mərhələdə Zəngilanda 20 hektar ərazidə 20 min ağacın əkilməsi nəzərdə tutulub. Bu layihələr çərçivəsində yalnız ağacların əkilməsi deyil, əkin materiallarının yetişdirilməsi, enerji təminatı, suvarma sisteminin qurulması, əkilmiş sahələrə müntəzəm nəzarət edilməsi, prosesi izləmək məqsədilə 3 il əzində dron vasitəsilə foto, videoçəkilişlərin aparılması nəzərdə tutulub.

Bu layihədə iştirak edən bütün donor şirkətlərə fond tərəfindən "İanə Sertifikatı" təqdim edilib: "Fondun veb səhifəsi vasitəsilə məbləğindən asılı olmayaraq ianə edən hər kəs "İanə sertifikatı" əldə edə, digər şəxsin adına alaraq hədiyyə edə və paylaşaraq digər insanları da bu mühüm missiya ətrafında birləşdirə bilər. Ümumi "İanə sertifikatı" ilə yanaşı, əlamətdar günlər münasibətilə də sertifikatlar əldə edib hədiyyə etmək mümkündür. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bəzi şəxslər, qurumlar, korporativ şirkətlər onlara əziz və doğma olan xanımları Qarabağda ağac hədiyyə etməklə sevindirib".

Bu təşəbbüs təbiətin oyanışı ilə əlaqədar Novruz bayramında da davam etdirilir. İstənilən şəxs sayta daxil olaraq "Qarabağa ağac ianə et" düyməsindən istifadə etməklə istəyinə uyğun sayda ağac ianə edə və əldə etdiyi sertifikatı hədiyyə edə bilər.

Meşə massivinin salınması layihəsi yalnız Zəngilanda deyil, işğaldan azad olunmuş digər ərazilərdə də davam etdiriləcək. Qarabağ Dirçəliş Fondunun prioritet istiqamətləri arasında ekoloji tarazlığın bərpası önəmli yer tutur. Çünki torpaqlarımız işğaldan azad edildikdən sonra ərazilərimizə dəyən zərərin miqyası da üzə çıxıb. Qarabağda mədəniyyət obyektləri, yaşayış yerlərimizlə bərabər, ekologiyaya da çox ciddi zərər dəyib. Bu zərərin aradan qaldırılması üçün mütləq şəkildə gücləri birləşdirmək, müxtəlif təşəbbüslər həyata keçirmək olduqca vacibdir.

Əkilən hər bir ağac, gül kolu Qarabağın təbiətinə can qatacaq. Zamanla Qarabağda, Şərqi Zəngəzurda əvvəlki yaşıllıqlarımızın, meşələrimizin bərpasının şahidi olacağıq.

Kür çayı sahilində yaşıllıqlara qulluq edilir

Son illərdə ətraf mühitin qorunması məqsədi ilə digər tədbirlərlə yanaşı, yeni yaşıllıqların salınmasına ciddi fikir verilir. Bu işdə Salyan rayon ictimaiyyəti də yaxından iştirak edir.

Kür çayı şəhərin ərazisini iki hissəyə bölməklə burada təbii mənzərə yaratmışdır. Təəssüf ki, çayda suyun uzun müddət aşağı səviyyədə olması, quraqlıq və ərazinin mal-qaranın örüş yeri kimi istifadə edilməsi buradakı biomüxtəlifliyə ciddi ziyan vurmuşdur. Hazırda şəhəri Babazanan massivi ilə birləşdirən körpünün ətrafında son illərdə salınmış yaşıllıqların qorunması, mövsümə uyğun olaraq qulluq edilməsi və suvarılması davam edir.

Son zamanlar rayonda ekoloji istiqamətdə həyata keçirilən tədbirlərdə qeyri-hökumət təşkilatlarının təmsilçiləri də yaxından iştirak edirlər. Rayonda fəaliyyət göstərən "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai birliyi icra etdiyi ekoloji layihələr çərçivəsində yazda Kür çayı sahilində yeni qovaq və çinar ağacları əkmişdir. İndi ağac tingləri yaşıllaşmış və qol-budaq atmışdır. Bu işdə könüllülərlə yanaşı, rayon yaşıllaşdırma idarəsinin kollektivi də yaxından iştirak edir. Təqdim edilən şəkillər də yeni ağac əkilmiş sahələrdə suvarma və qulluq zamanı çəkilmişdi.

Yeri gəlmişkən, əhalidən xahiş edirik ki, mal-qara, xüsusən iribaşlı heyvanlar tərəfindən yeni əkilmiş sahələrin sıradan çıxarılmasına imkan verilməsin.

Xaçmazda 3 hektar meşə yanıb

Xaçmaz rayonunda meşəlik ərazidə baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi tərəfindən görülmüş operativ və təxirəsalınmaz tədbirlər sayəsində məhdudlaşdırılıb.

Xaçmaz Rayon Fövqəladə Hallar Komissiyasının sədri Anar Oruclu AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, yanğın nəticəsində ilkin hesablamalara əsasən, təxminən 3 hektar sahədə meşəlik, 3 hektar sahədə isə kol-kos yanıb. Sıx meşəlik ərazi, ictimai-iaşə və kommunikasiya obyektləri yanğından mühafizə olunub.

Hazırda yanğın baş verən ərazidə soyutma tədbirləri görülür. Ərazidəki ictimai-iaşə və kommunikasiya obyektləri üçün təhlükə yoxdur.

Yanğınla mübarizə tədbirlərinə ümumilikdə FHN-in Aviasiya dəstəsinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə və 2 ədəd helikopter, Dövlət Yanğından Mühafizə Xidməti, Mülki müdafiə qoşunları, Xüsusi Riskli Xilasetmə Xidməti və Şimal Regional Mərkəzinin qüvvələri, Daxili İşlər Nazirliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları, yerli icra hakimiyyətinin müvafiq texnikaları cəlb olunub.

Meşələri yanğından qoruyun

Bioloji cəhətdən öz inkişafında bir-brinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur.

Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün yanması ilə nəticələnən meşə yanğınları təbiətin bu əvəzsiz sərvətinin məhv olmasına gətirib çıxarır.

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, on yanğından 9-u ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülmədən kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrinə söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusi ilə təhlükəlidir.

Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı , digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir.

Dövlət meşə fondunun, meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssisələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir.

Meşələrdə yanacaq sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir.

Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə Mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir. Söndürülmüş tonqaldan tüstü və ya buxar çıxarsa, onda aralanıb getmək, tələsmək olmaz. Gedərkən əmin olmaq lazımdır ki, tonqal tam sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırıdlmış zolaqlarla təmin edilməlidir. Bütün bunlarla yanaşı, meşələrimizlə əlaqəsi olan hər bir vətəndaş təbiətin bu əvəzsiz sərvətinin yanğın təhlükəsizliyinin qayğısına qalmalıdır.

FHN-nin Dövlət Yanğın Nəzarəti Xidmətinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi

ANA KÜR
İctimai, ekoloji maarifləndirici qəzet

Təsisçi və baş redaktor:
Rüstəm Məlikov

İcraçı direktor-Leyla Nəsirova, AJB-nin üzvü.

Redaksiya kollektivi ictimai əsaslarla çalışır

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alnmışdır: № 10/ M-4153.

KapitalBank Salyan r-n filialı, kod: 200435
VÖEN № 9900003611
M/H № 0137010001944
SWİFT AIIBAZ 2x
VÖEN №7000403892
H/h № AZ20AİİB
38210019444300309143

Qəzet "Ana Kür"-də yığılıb və "B-Z" nəşriyyatında çap edilmişdir.

Ünvan: AZ 5200 Salyan ş. Y.Xankişiyev küçəsi-22.
Telefon: 050-381-15-42.
E-mail: ana-kur2011@mail.ru

Tiraj: 500 ədəd.
Qəzet pulsuz paylanır.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.